# Vətənə, torpağa bağlı gənclərimiz

## *İdmançılarımız gərgin döyüşlərdə də mərdlik, qorxmazlıq nümunəsi göstərərək adlarını zəfər salnaməsinə əbədi yazıblar*



**"Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsində idman nə qədər vacibdirsə, bir o qədər də hərbi hazırlıq və fiziki hazırlıq vacibdir. Fiziki güc mənəvi saflığa da yol açır və şadam ki, bizim idmançılarımızın mütləq əksəriyyəti idmanda da, məişətdə də, cəmiyyətdə də nümunədirlər, örnəkdirlər. Onların davranışı, cəmiyyətdəki fəaliyyəti məni və əminəm ki, bütün xalqımızı sevindirir. Azərbaycan gənci məhz belə olmalıdır - vətənpərvər, fiziki cəhətdən güclü, mənəvi cəhətdən saf, öz xalqına, dövlətinə bağlı, heç bir kənar təsirə boyun əyməyən və ləyaqətli Azərbaycan gənci. ...Biz tarixi ədaləti, ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etmişik və bununla qürur duyuruq. Əminəm ki, bu şanlı Qələbəmiz hər bir Azərbaycan gənci üçün əlavə ruhlandırma amili olacaq. Biz döyüş meydanındakı Zəfərimizə idman qələbələrini də əlavə etdik və bu, əlbəttə ki, ölkəmizin beynəlxalq nüfuzunu daha da artırır". Bu fikirləri Prezident İlham Əliyev dekabrın 24-də 2024-cü ilin idman yekunlarına həsr olunan mərasimdəki çıxışında bildirib.**

Dövlət başçısı hər bir çıxışında gənclərimizin Vətənə, torpağa bağlılığını xüsusi qeyd edir. Uzun illər Müzəffər Ali Baş Komandan İlham Əliyevdən "İrəli!" əmrini gözləyən Azərbaycan əsgərinin 44 gündə yazdığı şanlı tarix onun gücünü, qüdrətini dünyaya nümayiş etdirdi. Vətən övladları torpaqlarımızın azadlığı, ərazi bütövlüyü və suverenliyinin təmin olunması yolunda canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən islahatların məntiqi nəticəsi olaraq bu gün bütün sahələr inkişaf edir. Təqdirəlayiq haldır ki, ölkə gəncləri daim diqqətdə saxlanılır. Son illərdə gənclərin dövlət strukturlarında məsul vəzifələrə təyin edilməsi onlara olan etimadın və diqqətin göstəricisidir. Prezident İlham Əliyevin gənclərlə çoxsaylı görüşləri, problemləri ilə maraqlanması onları ölkəmizin inkişafı yolunda durmadan çalışmağa sövq edən böyük motivasiya mənbəyidir.

Bu gün Bakıda, eləcə də ölkəmizin bütün bölgələrində müasir Olimpiya İdman kompleksləri, çoxsaylı idman mərkəzləri fəaliyyət göstərir. İdman sahəsində əsl yüksəliş dövrünü yaşayan Azərbaycanda mükəmməl idman infrastrukturu yaradılıb. Bakı Olimpiya Stadionu, Milli Gimnastika Arenası, Bakı Su İdmanı Sarayı və digər möhtəşəm idman obyektləri ölkəmizi beynəlxalq yarışların, dünya çempionatlarının keçirilməsi üçün əlverişli məkana çevirib. Belə möhtəşəm idman qurğuları 2012-ci ildə futbol üzrə 17 yaşlı qızlar arasında dünya çempionatının, 2015-ci ildə birinci Avropa Oyunlarının, 2016-cı ildə futbol üzrə 17 yaşadək oğlanlar arasında Avropa çempionatının, 42-ci Ümumdünya Şahmat Olimpiadasının, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarının və qadınlar arasında voleybol üzrə Avropa çempionatının, 2020-ci ildə bədii gimnastika üzrə dünya çempionatının, 2023-cü ildə taekvondo üzrə dünya çempionatının, habelə Formula-1 Azərbaycan Qran-pri yarışlarının yüksək səviyyədə təşkil olunmasına imkan verib.




Hazırda ölkəmizdə 200-dən artıq gənclər təşkilatı fəaliyyət göstərir. Gənclərimiz Avropa miqyasında, beynəlxalq qurumlarda ölkəmizi təmsil edir, xalqımızın haqq səsini dünyaya yayır, beynəlxalq ictimaiyyətin əsl həqiqəti bilməsi üçün çalışırlar.

Respublikamızın ərazi bütövlüyünün təmin edilməsində və qazanılmış tarixi Qələbədə Azərbaycan gəncliyinin xüsusi rolu olub. Gənclərimiz həm döyüş meydanında şücaət göstərib, həm də erməni təcavüzünün dünyaya çatdırılmasında üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəliblər. Xalqımızın qəhrəmanlıq tarixini yazanlar da gənclərdir. Hər zaman adlarını fəxrlə çəkdiyimiz Mübariz, Fərid, Murad, Samid, Xudayar kimi qəhrəmanlar bu gün Azərbaycanımızda yüzlərlə, minlərlədir. Müzəffər Ali Baş Komandanın liderliyi ilə qalib ordumuzun sıralarında gənclərimizin böyük rəşadət göstərərək tarix yazması Azərbaycan gəncliyinin yüksək vətənpərvərlik ruhunda yetişməsinin təsdiqidir. Gənclərin milli ruhda tərbiyəsində, onlara Vətən sevgisinin aşılanmasında ən mühüm amillərdən biri də ölkəmizdə uğurla həyata keçirilən dövlət gənclər siyasətidir. Məhz onların rəşadəti sayəsində Azərbaycanın ərazi bütövlüyü bərpa edildi, xalqımız otuz illik həsrətdən sonra tarixi torpaqlarına qovuşdu. Dövlət başçısının siyasi iradə və qətiyyəti, Ordumuzun gücü və xalqımızın bir amal uğrunda səfərbərliyi Vətən müharibəsində parlaq qələbəmizi şərtləndirən əsas amillər oldu. İgid Azərbaycan oğulları şanlı tariximizi yazdılar, qanları, canları bahasına, heç nədən qorxmadan, çəkinmədən.

Bu Zəfərdə idmançılarımızın da payı az olmadı. Həmişə beynəlxalq arenalarda bayrağımızı yüksəklərə qaldıran gənc idmançılarımız bu dəfə əzəli torpağımız olan Qarabağda bayrağımızın dalğalandırılmasında yaxından iştirak etdilər. Onlar idman arenalarında olduğu kimi, şiddətli döyüşlərdə də mərdlik, qorxmazlıq və şücaət göstərərək adlarını qızıl hərflərlə zəfər salnaməsinə yazdılar. Onlardan yaralanan da oldu, şəhidlik zirvəsinə yüksələn də... Vətən müharibəsində ümumilikdə 988 idmançı iştirak edib ki, onlardan 320-si şəhid olub. Şəhidlərin 179-u futbolla, 27-si güləşlə, 24-ü isə cüdo ilə məşğul olub.

Vətən müharibəsinin ilk günlərindən Azərbaycan cəmiyyətindəki coşqu, insanlarımızın vahid hədəf uğrunda bir araya gəlməsi sarsılmaz birliyin təcəssümü idi.

Azərbaycanın ərazi bütövlüyü, haqq-ədalət uğrunda canını qurban vermiş şəhidlərimiz bütün nəsillərə örnəkdir.

Gənclərimiz həmişə igidlik nümunəsi göstəriblər. 2015-ci ilin oktyabr ayında Naftalan, Talış kəndi istiqamətində gedən döyüşlərdə kəşfiyyat qrupu komandiri olmuş, Silahlı Qüvvələrin baş leytenantı, döyüş tapşırığını yerinə yetirərkən mina partlaması nəticəsində bir gözünü itirmiş qazi Kamil Musəvinin 2019-cu il fevralın 1-də Bakı Konqres Mərkəzində Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında çıxışı duyğulu anlar yaşatmışdı. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirak etdiyi tədbirdə çıxış edən K.Musəvi qazilərin Ali Baş Komandanın "İrəli" əmrinə hər an hazır olduğunu bildirirdi: "Kimlərsə düşünər ki, vücudlarının hər hansısa bir üzvünü itirmiş insanlar nə cür döyüşə bilər. Amma ayağımız yoxdur, sürünərək, gözümüz yoxdur, hiss edərək döyüşə gedəcəyik. Yetər ki, yaşasın xalqımız, yetər ki, var olsun müstəqil Azərbaycanımız".




**M.MİRZƏ,**
**"Respublika".**